Gəncə Dövlət Universiteti

# MAGİSTRATURA TƏHSİL SƏVİYYƏSİNİN

# 7001001 – TARİXİN TƏDRİSİ İXTİSASLAŞMASI ÜÇÜN

# TƏHSİL PROQRAMI VƏ FƏNLƏR ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİ

GƏNCƏ-2025

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ PUBLİK HÜQUQİ ŞƏXS**

# MAGİSTRATURA TƏHSİL SƏVİYYƏSİNİN 7001001 – TARİXİN TƏDRİSİ İXTİSASLAŞMASI ÜÇÜN

# TƏHSİL PROQRAMI VƏ FƏNLƏR ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİ

*Gəncə Dövlət Universiteti PHŞ-in "Ümumi tarix " kafedrasının 21.10.2025-ci il tarixli iclasında müzakirə edilərək bəyənilmiş və qəbul edilmişdir.*

**GƏNCƏ - 2025**

**Tərtib etdi:** **Musayev Etibar Adil oğlu**
*“Ümumi tarix” kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent,*

**Paşayeva Elza Məhəmməd qızı**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

**Bəxtiyarlı Hüseyn Əlisahib oğlu**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

*Mehdiyev Eldar Musa oğlu*
*Baş müəllim(Azərbaycan tarixi kafedrasının müdiri vəzifəsini icra edən)*

# GİRİŞ

Təlim nəticələri anlayışı tələbəyə yönəlmiş ali təhsil sisteminin başlıca konseptual əsasını formalaşdırır. Təlim nəticələri təhsil prosesini tamamladıqdan sonra tələbənin nəyi bilməli, anlamalı və ya nümayiş etdirə bilməli olduğuna dair ifadələrdir.

Gözlənilən təlim nəticələri hər kurs və proqram üzrə tədris başlamazdan əvvəl yazılmalı və tədris prosesi zamanı professor-müəllim heyətinin üzvü və tələbə arasında dialoq vasitəsilə inkişaf etdirilməlidir.

Təlim nəticələrindən istifadə kvalifikasiyaların qiymətləndirilməsində iştirak edən müəssisələrə, işəgötürənlərə və digərlərinə kvalifikasiyaları daha aydın anlamağa yardım etmək üçün kvalifikasiyaların təsvirində istifadə edilən ortaq dildir.

Proqram və fənlərin təsvirində təlim nəticələrindən istifadə proqramın, yaxud modulun sonunda tələbələrdən nə gözlənildiyini onlara daha aydın şəkildə çatdırır. Təlim nəticələrinin üstünlüklərindən biri ondan ibarətdir ki, tələbələrdən nəyə nail olmaq tələb olunduğu və nailiyyətlərini necə nümayiş etdirmək lazım olduğu aydın surətdə göstərilir.

Metodik tövsiyədə **7001001- Tarixin tədrisi** ixtisaslaşması üçün təhsil proqramı üzrə təlim nəticələri, fənlər üzrə təlim nəticələri, eləcə də tədris olunan fənlərin və təhsil proqramının təlim nəticələrinin matrisi verilmişdir.

Təlim nəticələrinin kvalifikasiyaların qiymətləndirilməsində iştirak edən maraqlı tərəflərə daha aydın və anlaşıqlı olması üçün mütəmadi olaraq ayrı-ayrı fənlərin təlim nəticələri kafedrada yaradılmış komissiya tərəfindən ekspertiza edilir.

**Əlavə 1**

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin **“7001001-Pedaqogika”** ixtisasnın Tarixin tədrisi ixtisaslaşması üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı”na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

− ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;

− təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;

− təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. “7001001-Pedaqogika” ixtisasının Tarixin tədrisi ixtisaslaşması üzrə təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- Peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- Müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- Fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- Fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- Fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- Fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- Müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- İstənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;

- Davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

**2.2.** 7001001-Pedaqogika" ixtisasının Tarixin tədrisi ixtisaslaşması üzrə məzun aşağıdakı ***peşə səriştələrinə*** yiyələnməlidir:

## Peşə səriştələri

1. Tarixin tədrisi ilə bağlı müasir elmi-metodoloji və pedaqoji yanaşmaları,
proqram modellerini və beynəlxalq təcrübəni inkişaf etdirərək, onları tarixin tədrisi kontekstində tətbiq imkanlarını elmi-metodik əsaslarla təhlil edir.
2. Tarixi materiallardan (mənbələr, xeriteler, vizual materiallar, elektron resurslar) istifade olunmasına əsaslanan yanaşmalar əsasında elmi-metodik baxımdan araşdırma aparır ve bu tədqiqatı esaslandırır.
3. Tarixin tədrisinə dair proqramlan ve elmi-metodik materialları (derslikler, tedris vəsaitləri, metodik vasaitləri) elmi-kritik meyarlarla qiymətləndirir ve onların effektivliyini müəyyənləşdirir.
4. Tarix təliminde Istifadə olunan didaktik vasitələrin və təlim texnologiyalarının praktik təsirini elmi-pedaqoji tədqiqat meyarları ile səmərəli şəkildə qiymətləndirir və onların təkmilləşdirilməsi üzrə təkliflər İrəli sürür.
5. Tarixin öyrənilməsinə dair aparılmış empirik və nəzəri tədqiqatları metodoloji baxımdan təhlil və sintez edir, həmin tədqiqatların nəticələrinə asaslanan hesablamaları təhlil edir.
6. Tarix təliminin keyfiyyətini yüksəltmək məqsədilə yeni tədqiqat problemlərini həll edir, elmi-pedaqoji araşdırmalar aparır ve məqsədəuyğun praktiki nəticələr əldə edir.

7. Tarix təliminə dair elmi məqalələri, metodik tədqiqatları və tədqiqat hesabatlarını nüfuzlu elmi platformalarda təqdim edir və elmi diskursda iştirak edir.
8. Tarixi məlumatlardan-yazılı mətnlər, vizual materiallar, kartografik və arxiv sənədləri, statistik və bədii materiallardan tədris prosesində interpretasiya və təhlil üsulları ilə istifadə etməklə səmərəli elmi-metodik təlim mühiti yaradır.
9. Tarixi hadisə və proseslər, məkan və səbəb-nəticə əlaqəli obyektlər, texniki xarakterli ilkin tarixi mənbələr (xronikalar, sənədlər, epiqrafik materiallar, xəritələr, vizual materiallar və şifahi tarix nümunələri) esasında elmi-metodik təlim materialları hazırlayır və bu amillərin didaktik imkanlarını nəzərə almaqla idrak ölçmə metodikasını formalaşdırır.
10. Tarix fənnində orijinal yazılı materiallar, arxiv sənədləri, vizual təsvirlər (fotoşəkiller, karikaturalar, film fragmentləri), tarixi xəritələr və statistik cədvəllər əsasında analiz və interpretasiya bacarıqlarını inkişaf etdirmək məqsədilə elmi-metodik materialları təhlil edir. 11. Texniki xarakterli ilkin tarixi mənbələrdən (xronikalar sənədlər, epiqrafik materiallar, xəritələr, vizual və şifahi tarix nümunələri) elmi-metodik telim materialları hazırlayır, onların didaktik potensialını təhlil edir və müxtəlif formatlı tarixi materiallara tanqidi yanaşma əsasında onları elmi-metodik təlim materiallarına çevirir.

## 3. İnfrastruktur və kadr potensialı

5.1. “7001001-Pedaqogika” ixtisasının müvafiq ixtisaslaşmaları üzrə təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi müvafiq ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirən ali təhsil müəssisəsinin yüksək ixtisas elm-pedaqoji heyətə, müvafiq rəqamsal texniki tədris vasitələri ilə təchiz olunmuş kabinetlərə, tədris və elmi tədqiqat laboratoriyalarına və auditoriya fonduna, profil üzrə elmi tədqiqat instutuları (mərkəzləri) ilə peşəkar əlaqələrə,

müvafiq beynəlxalq indekslәndirmә jurnallarına, elmmetrik bazalara çıxış imkanları, ixtisaslaşmış elmi kitabxana fondu, elektron elmi, kitabxana resurslarına çıxış imkanları və elmi tədqiqat təcrübə bazası olmalıdır.

5.2. Bununla yanaşı, "7001001-Pedaqogika" ixtisasının müvafiq ixtisaslaşmaları üzrə kadr hazırlığı həyata keçirən ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura və kadr potensialına malik olmasını zəruri edir:

**İxtisaslaşma üzrə kadr hazırlığı aparan ali təhsil müəssisəsinin malik olması tələb olunan minimum infrastruktura**

-İxtisaslaşmış tarix kabinetləri və metodiki dərs otaqları (dövrlər üzrə sistemləşdirilmiş tematik planlarla (siyasi, etnoqrafik, iqtisadi və hərbi sahələr üzrə) təchiz olunmuş auditoriyalar) olmalıdır.

- Vizual tədris vasitələri (tarix fənninin vizuallaşdırılması üçün interaktiv lövhələr, proyektorlar və digər multimedia qurğuları) olmalıdır.

- Tədris tabloları (tarixi hadisələrin diaxronik təqdimatı və rekonstruksiyası üçün xüsusi tədris tabloları və qrafik materiallar) olmalıdır.

- Rəqəmsallaşdırılmış ilkin mənbələr (tarixi məlumatların və ilkin sənədlərin (fərmanlar, salnamələr, xronikalar və s.) elektron formatda istifadəsi üçün arxiv bazaları olmalıdır.

- Audiovizual arxiv bölmələri (şifahi tarix materiallarının toplanması və təhlili üçün audio və video avadanlıqlarla təchiz edilmiş arxiv mühitləri) olmalıdır.

- Elmi nəşrlər və kitabxana fondları (Azərbaycan və dünya tarixinə, həmçinin tarixin tədrisinə dair monoqrafiyalar, dərsliklər, metodik və elmi jurnallar) olmalıdır.

- Beynəlxalq elmi bazalara çıxış ("JSTOR", "EBSCO", "ProQuest", "Cambridge Core" və digər nüfuzlu beynəlxalq elmi məlumat bazalarına onlayn çıxış imkanı) olmalıdır.

- Kompüter laboratoriyaları (Coğrafi İnformasiya Sistemləri (CİS), xəritəçəkmə və tarixi məlumatların vizual təhlili üçün proqram təminatı ilə təchiz olunmuş laboratoriyalar) olmalıdır.
- Təlim modulları (tarix dərslərinin planlaşdırılması, qiymətləndirmə vasitələrinin hazırlanması və təlimin təşkili üçün nəzərdə tutulmuş modullar) olmalıdır.
-Seminar və debat mühiti (tarix dərslərinin modellərinin hazırlanması və təhlili üçün praktik seminar otaqları, debat zonaları və rol oyunlarının təşkili üçün uyğunlaşdırılmış siniflər) olmalıdır.
- Tarixi situasiyaların simulyasiyası (sülh danışıqları, parlament iclasları və digər tarixi hadisələrin modelləşdirilməsinə yönəlmiş praktiki məşğələlər üçün xüsusi otaqlar) olmalıdır.
- Təcrübə və ekspedisiya imkanları (muzeylərlə, elmi-tədqiqat institutları ilə əməkdaşlığa əsaslanan praktik təcrübələr və sahə ekspedisiyalarının təşkili üçün müvafiq infrastruktur) olmalıdır.
- Tətbiqi tədqiqat dəstəyi (təhsilalanların tarixi məkanlarda araşdırma aparması üçün logistik və texniki dəstək imkanları) olmalıdır.
- İnteraktiv təlim proqramları (tarix fənninin müasir tədris metodlarına uyğun "Prezi", "Padlet", "Kahoot" və digər proqram təminatı ilə işləmək üçün texniki imkanlar) olmalıdır.
- Multimedia və media mərkəzləri (tarixi filmlər, sənədli materiallar və vizual mənbələrin istifadəsinə şərait yaradan media mərkəzləri) olmalıdır.

5.3. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislərdə tədrisə cəlb oluna bilərlər.

5.4. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. **Karyera imkanları və ömürboyu təhsil**

6.3. “7001001-Pedaqogika” ixtisasının Tarixin tədrisi ixtisaslaşması üzrə məzunlarına şağıdakı sahələrdə və peşələrdə işləyə bilərlər:

Bu ixtisaslaşmanın məzunları ali təhsil müəssisələrində müəllim köməkçisi, müəllim, laborant, tədris-metodiki işçi, elmi işçi, elmi-tədqiqat institutlarında tarix və metodika sahəsində elmi işçi, tədqiqatçı, təhsil idarəetmə orqanları kurikulum üzrə mütəxəssis, metodist, təhsilin idarə edilməsi üzrə mütəxəssis, dövlət və qeyri-dövlət müəssisələrində mədəniyyət və maarifləndirmə sahəsində mütəxəssis, layihə, ictimai təşkilatlarda təlimçi, muzeylər və arxivlərdə elmi işçi, bələdçi, fond mühafizi, maarifləndirmə üzrə mütəxəssis, media və nəşriyyat sahələrində elmi-populyar nəşrlərin müəllifi və ya redaktoru, tarix və tarixin tədrisi yönümlü layihələrin mütəxəssisi və ömürboyu təhsil və əlavə təhsil proqramlarında təlimçi, modul müəllimi, müəllimlərin ixtisasartırma təlimlərində təlimçi-ekspert işləyə bilərlər.

5.3. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

5.4. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

5.5. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

"7001001-Pedaqogika" ixtisasının Tarixin tədrisi ixtisaslaşmalası üzrə aşağıdakı proqramın təlim nəticələrinə uyğun olaraq ali təhsil müəssisəsi hər bir tədris fəaliyyəti (eləcə də fənlər) üzrəgözlənilən təlim nəticələrini müəyyən etməlidir.

### Proqramın təlim nəticələri (PTN)

**PTN 1.** Tarix təlimi prosesinin mahiyyətini və xüsusiyyətlərini müxtəlif təhsil pillələrində təhlil edir, tarixin tədrisinə dair elmi-pedaqoji və metodoloji yanaşmaları əsaslandırılmış şəkildə tətbiq edir.

**PTN 2.** Tarix tədrisində təhsilverənlərlə təhsilalanlar arasında səmərəli elmi- pedaqoji münasibətlər qurur, onların qarşılıqlı əməkdaşlığına əsaslanan təlim mühiti formalaşdırır.

**PTN 3.** Tarixi materiallar, mənbə və mətnlərlə işləmə bacarıqlarına yiyələnir, faktların təhlili və interpretasiyası üzrə müasir metodlardan istifadə edir.

**PTN 4.** Tarixi biliklərin formalaşdırılmasında əldə edilmiş (xronikalar, sənədlər, epiqrafik abidələr, xəritələr, vizual materiallar və şifahi tarix) elmi-metodik materaiallar əsasında tarixi hadisə və prosesləri zaman, məkan, səbəb-nəticə və sistem-kontintuitet baxımından araşdırmaqla, onların tədrisində, təhlil və ümumiləşdirmə kimi düşünmə qabiliyyətini inkişaf etdirir, tarixin tədrisində inteqrativ-multidisiplinar yanaşmaları tətbiq edir, müasir dərs modelləri qurur.

**PTN 5.** Təhsilalanlarda milli kimlik, siyasi mədəniyyət, mənəvi dəyərlər və vətəndaş məsuliyyətinin formalaşdırılması istiqamətində tarixi biliklərin tərbiyəvi potensialından istifadə edir, tarixin tədrisinin mənəvi tərbiyəyə təsirini təhlil edir.

**PTN 6.** Tarix tədrisinin aktual problemlərini və inkişaf mərhələlərini təhlil edir, müstəqil elmi-pedaqoji tədqiqatlar aparmaq, tarix üzrə dərsdənkənar fəaliyyətləri təşkil etmək, layihələr hazırlamaq bacarıqlarını nümayiş etdirir.

**PTN 7.** Elmi etika prinsiplərinə əsaslanaraq tarixin tədrisi üzrə problemləri müəyyənləşdirməyi, onun həlli istiqamətində tədqiqat suallarını formalaşdırmağı, uyğun tədqiqat metodlarını seçib tətbiq etməyi, verilənləri analitik üsullarla təhlil etməyi və əldə olunan nəticələri akademik yazı standartlarına uyğun şəkildə təqdim edir.

**Ümumi fənnlərin təlim nəticələri**

| **Tədqiqat metodları (FTN)** |
|---|
| **FTN 1.** Müxtəlif tədqiqat metodlarını (kəmiyyət və keyfiyyət) tədqiqat sualına uyğunluğu baxımından qiymətləndirir və onların güclü və zəif tərəflərini əsaslandırmağı bacarır. |
| **FTN 2.** Akademik ədəbiyyat və empirik nəticələri təhlil edərək metodoloji yanaşmalar arasında müqayisəli qiymətləndirir. |
| **FTN 3.** Etik prinsipləri nəzərə alaraq seçilmiş metodologiyanın uyğunluğunu və tətbiq imkanlarını tənqidi şəkildə təhlil edir. |
| **FTN 4.** Fərqli tədqiqat dizaynlarının praktiki nəticələrə təsirini əsaslandıraraq düzgün metodoloji qərar verir. |
| **FTN 5.** Konkret tədqiqat sualına əsaslanaraq orijinal bir tədqiqat dizaynı yaradır və uyğun metodları inteqrasiya edir. |
| **FTN 6.** Empirik tədqiqat üçün yeni ölçmə alətləri (anket, müşahidə forması, kodlaşdırma sxemi və s.) hazırlayır və əsaslandırır. |
| **FTN 7.** Fərqli metodoloji yanaşmaları birləşdirərək innovativ qarışıq tədqiqat (mixed methods) modeli qurur və onu tətbiq etməyi bacarır. |
| **FTN 8.** Əldə olunan məlumatlar əsasında yeni nəzəri çərçivə və ya model irəli sürür və onun elmi əsaslarını təqdim edir. |

| **Akademik yazı və etika (FTN)** |
|---|
| **FTN 1.** Akademik mənbələrin etibarlılığını, elmi üslubunu və istinad standartlarına uyğunluğunu qiymətləndirir və onların elmi yazıda istifadəsinin məqsədəuyğunluğunu əsaslandırır. |
| **FTN 2.** Müxtəlif akademik yazı nümunələrində plagiat, səhv |

| |
|---|
| istinad və etik pozuntuları müəyyən edir və onların nəticələrini tənqidi şəkildə təhlil edir. |
| **FTN 3.** Müxtəlif sahələrdə tətbiq olunan akademik etika prinsiplərini müqayisə edir və konkret tədqiqat və yazı kontekstində bu prinsiplərin tətbiqini əsaslandırır. |
| **FTN 4.** Özünün və başqalarının yazı işlərini elmi, etik və stilistik baxımdan qiymətləndirir və inkişaf etdirilməsi üçün əsaslandırılmış rəy verir. |
| **FTN 5.** Müxtəlif akademik auditoriyalar üçün uyğunlaşdırılmış yazı strategiyaları və strukturlaşdırma üsulları yaradır və onların məqsədəuyğunluğunu izah edir. |
| **FTN 6.** Konkret tədqiqat mövzusuna dair elmi əsaslandırılmış, etik baxımdan düzgün və metodoloji cəhətdən tutarlı bir yazılı məhsul (məqalə, araşdırma sənədi və s.) yaradır. |

| **Tədqiqat analitikası (FTN)** |
|---|
| **FTN 1.** Müxtəlif məlumat analiz metodlarını konkret tədqiqat kontekstində tətbiq edilmə imkanları baxımından qiymətləndirir və metodların güclü və zəif cəhətlərini əsaslandırır. |
| **FTN 2.** Məlumatların təhlilindən əldə olunan nəticələri mövcud nəzəri çərçivə ilə müqayisə edir və nəticələrin etibarlılığını və məntiqini qiymətləndirir. |
| **FTN 3.** Fərqli analitik yanaşmaların (məsələn, statistik modellər, maşın öyrənməsi, vizualizasiya vasitələri) tədqiqat məqsədlərinə uyğunluğunu əsaslandırır və uyğun texnologiya seçir. |
| **FTN 4.** Tədqiqat analitikası sahəsində etik, hüquqi və sosial nəticələri təhlil edərək məlumatların istifadəsinin məsuliyyətli olub-olmadığını qiymətləndirir. |
| **FTN 5.** Mövcud analitik metodlara əsaslanaraq yeni tədqiqat analizi yanaşması və ya inteqrasiya olunmuş modeli (məsələn, qarışıq metodologiya və vizual analitika) inkişaf etdirir. |
| **FTN 6.** Fərqli mənbələrdən toplanan məlumatları birləşdirərək yeni tədqiqat sualına cavab verən məlumat analizi çərçivəsi və |

| |
|---|
| ya platforması qurur. |
| **FTN 7.** Tədqiqat layihəsi üçün orijinal məlumat vizualizasiya alətləri və ya panelləri (dashboard) hazırlayır və onları elmi əsaslandırır. |
| **FTN 8.** Analitik nəticələr əsasında yeni strategiyalar və qərarvermə mexanizmləri formalaşdırır və bu yanaşmanın tətbiq imkanlarını əsaslandırır. |

## ALİ TƏHSİL MÜƏSSİSƏSİ TƏRƏFİNDƏN MÜƏYYƏN EDİLƏN MƏCBURİ FƏNLƏR

| **Tarix və onun tədqiqat üsulları** |
|---|
| **FTN1.** Tarixi tədqiqatın əsas istiqamətlərini, tədqiqat üsullarını müəyyən etməyi bacarır. |
| **FTN2.**Tarixi mənbələrin,tədqiqatla bağlı ədəbiyyatların seçilməsi və onlarla işləməyi bacarır. |
| **FTN2.**Tarixi mənbələrin,tədqiqatla bağlı ədəbiyyatların seçilməsi və onlarla işləməyi bacarır. |
| **FTN4.**Tarix elmi dilini mənimsəmək qabiliyyəti əldə edir. |
| **FTN5.**Tarixi tədqiqatın aktual prinsipləri,tədqiqatın aparılması üsulları,əlyazmalarının hazırlanmasını bilir. |
| **FTN6.**Elmi işin prezentasiyası və elmi cəmiyyətin etik qaydalarına əməl edir |
| **FTN7.**Elmi tədqiqatın aktual problemləri və üsullarını tətbiq etmək bacarığını elmi konfranslarda,elmi jurnallarda nümayiş etdirir |

| **Tarixi tədqiqatların aparılmasında arxiv materialları ilə iş metodikası** |
|---|
| **FTN 1.** Tarixi tədqiqatların aparılmasında arxiv materialları ilə tarixin öyrənilməsinin metodologiyasının nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli biliyə malikdir; |
| **FTN 2.** Arxiv materialarından istifadənin əsas anlayışları haqqında konkret (ixtisaslaşmış) biliklərə malikdir; |
| **FTN 3.** Arxiv materialları əsasında tədqiqat işi haqqında |

| |
|---|
| ümumi təsvvürə malikdir, tarixi sənədlərlə hadisələri şərh edir; |
| **FTN 4.** Tarixin tədqiqinin arxiv materiallarından istifadənin metodoloji problemlərini bilir, məsələləri yaradıcı şəkildə müəyyənləşdirir və metodikasını təhlil edir; |
| **FTN 5.** Arxiv materialları əsasında tarixin öyrənilməsi metodologiyasına dair biliklərini tədris, təlim və innovativ üsullarla müəyyən edir; |
| **FTN 6.** Arxiv materialarını tədqiq edir, həmçinin müstəqil təhsil üçün zəruri olan səmərəli metodlardan istifadə edir; |
| **FTN 7.** Arxiv materiallarının tədqiqat metodlarının davamlı öyrənilməsi və peşəkar inkişafı ilə bağlı şəxsi ehtiyaclarını qiymətləndirir; |

| **Orta məktəbdə tarixin tədrisi prosesində şagird fəallığının təmin edilməsi** |
|---|
| **FTN1.** Tarix və onun tədrisinin məqsəd və vəzifələrini müəyyən edir. |
| **FTN2.**Fəal təlim fəaliyyətlərinin inkişaf etdirilməsndə müəllim və şagirdlərin rolunu və yerini səciyyələndirir. |
| **FTN3.**Fənnin tədrisi nəticəsində tarix müəlliminin tədris, təlim-tərbiyə işinin əsas istiqamətlərini göstərərək izah edir |
| **FTN4.**Tarxin tədrisi prosesində şagirdlərin əldə edəcəkləri qabiliyyət və bacarıqları bilir. |
| **FTN5.**Müəllimin dərsdə təşkiledici və rəhbərlikedici rolunu öyrənməklə şagird fəllığını təmin edilməsi yollarını müəyyən edir. |
| **FTN6.**Tarixin təlimində yüksək səmərəliliyi təmin etməklə fəal, əqidəli, tərbiyəli və vətənpərvər vətəndaş olmağın yollarını göstərir. |
| **FTN7.**Şagirdin şəxsiyyət hissini inkişaf etdirmək idrakı və məntiqi təfəkkürün əhəmiyyətini tətbiq edir. |

| **Tarixin tədrisi üsulları və istiqamətləri** |
|---|
| **FTN-1.** Tarix fənninin tədrisinin əsas istiqamətlərini müəyyən |

| |
|---|
| edir. |
| **FTN-2.** Tarix fənninin təlimində tarixi biliklərin mənimsənilməsi, tarixi hadisələr arasında əlaqə və münasibətləri şərh edir |
| **FTN-3.** Dərsliklər, dərs vəsaitləri və digər müvafiq ədəbiyyatlar vasitəsilə tarix təliminin mahiyyətini şərh etmək, təhlil edir |
| **FTN-4.** Təlim materialları, tarixi təsəvvürlərin formalaşdırılması, tarixi biliklərin verilməsi məsələlərinin metodoloji problemlərini sintez edir. |
| **FTN-5.** Tarix təlimində yüksək səmərəliliyin təmin olunmasında, yeni cəmiyyətin fəal, əqidəli qurucularının tərbiyə və inkişaf etdirilməsi üçün lazımi bacarıq və vərdişlərin qazanılmasında vacib olan müasir metodikanın nəzəri əsaslarını dəyərləndirir |
| **FTN-6.** Tarixin tədrisinin əsas istiqamətləri və aktual problemləri haqqında tədqiqat işi aparmaq, əldə edilmiş təcrübəni elmi konfranslarda,elmi jurnallarda nümayiş etdirir və nəticələr çıxardır |

| **Azərbaycan tarixinin tədrisində Ümumilli lider Heydər Əliyev irsindən istifadə üsulları** |
|---|
| **FTN1.**Azərbaycan tarixinin yeni istiqamətdə təsdiq edilib öyrənilməsində Heydər Əliyev irsinin konseptual məsələlərini ümumiləşdirici prinsipləri haqqında sistemli ümumi təsəvvürə malikdir; |
| **FTN 2.** Azərbaycan tarixində Ümummilli Lider Heydər Əliyev dövrünün hadisələrinin cari və perspektiv nəticələrini təhlil edir, fəaliyyəti ilə bağlı faktları yaradıcı şəkildə müəyyən edir; |
| **FTN 3.** Ümummilli Lider Heydər Əliyev Sovet quruculuğu fəaliyyətinin Azərbaycan tarixinin tədrisində yeri və əhəmiyyətni yaradıcı şəkildə müəyyənləşdirir, əsaslandırır və müvafiq müzakirələrdə şərh edir; |
| **FTN 4.** Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq fəaliyyətinin ictimai- iqtisadi, mədəni və siyasi nəticələrinin bəzi |

| |
|---|
| nəticələrinin Azərbaycan tarixinin öyrənilməsində yeri və əhəmiyyətnin şərhini, tədris, təlim və digər üsullarla başqalarına ötürə bilir; |
| **FTN 5.** Azərbaycan tarixinin tədrisində Ümummilli Lider Heydər Əliyevin vətənpərvərlik irsindən istifadə etməyi bacarır; |
| **FTN 6.** Azərbaycan tarixinin tədrisində Ümummilli Lider Heydər Əliyev irsindən istifadə təcrübəsini tədris, təlim və digər üsullarla başqalarına ötürə bilir; |
| **FTN 7**. Azərbaycan tarixinin tədrisində Ümummilli Lider Heydər Əliyev irsindən istifadə imkanları zəminində Ümummilli Lider Heydər Əliyevin «Müstəqilliyimiz əbədidir» adlı çox cilidli əsərlərinin elmi-nəzəri nümunələrdən yaradıcı şəkildə istifadə edə bilir; |
| **FTN 8.** Azərbaycan tarixinin tədrisində Ümummilli Lider Heydər Əliyev şəxsiyyəti nümunəsindən istifadəni bilir, davamlı öyrənmə və peşəkar inkişaflabağlı ehtiyacları qiymətləndirir, müstəqil təhsil üçün səmərəli şəkildə istifadə edə bilir; |

| **Azərbaycan dövlətçilik tarixi və onun öyrədilməsi metodologiyası** |
|---|
| **FTN 1.** Azərbaycanın dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişaf tarixini ümumiləşdirir; |
| **FTN 2.** Azərbaycanın dövlətçilik ənənələrinə sədaqət hissi formalaşdıraraq, dövlətçilik ənənələrinin keçmişi və bu günü haqqında zəruri faktları cəmiyyətin müasir vəziyyətinə uyğun müəyyən edir; |
| **FTN 3.** Azərbaycanın dövlətçilik ənənələrinin tarixi, yaranması, formalaşması və inkişafı dinamikasını dövrün xüsisiyyətləri baxımından izah edərək, onlar arasında səbəb və nəticə əlaqələrini şərh edir; |
| **FTN 4.** Azərbaycan dövlətçiliyinin formalaşmasına təsir edən siyasi, ideoloji, iqtisadi və mədəni amillərin rolunu, fəal vətəndaşlıq mövqeyi baxımından nümayiş etdirir; |
| **FTN 5.** Azərbaycanın müasir dövrdə sosial –iqtisadi inkişaf |

| |
|---|
| xüsusiyyətlərini analiz edir; |
| **FTN 6.** Müasir dünyada Azərbaycan dövlətçiliyinin yeri və rolunu sistemli təhlil edərək, fərziyyə və mülahizələr irəli sürür; |
| **FTN 7.** Müasir mərhələdə Azərbaycan dövlətçiliyinin güclənməsini şərtləndirən amilləri, şəxsiyyətin rolunu təhlil edir və dəyərləndirir. |

| **Azərbaycan tarixinin tədrisində arxeoloji və muzey materiallarından istifadənin metodologiyası** |
|---|
| **FTN 1.** Azərbaycanın arxeoloji tarixinin öyrənilməsinin metodologiyasının nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli biliyə malikdir; |
| **FTN 2.** Muzey materialarından istifadənin əsas anlayışları haqqında konkret (ixtisaslaşmış) biliklərə malikdir; |
| **FTN 3.** Qədim dövrdən bugünümüzədək Azərbaycan mədəniyyətinin tədrisi metodologiyası və metodikasının davamlı öyrənilməsi və peşəkar inkişafla bağlı şəxsi ehtiyaclarını qiymətləndirir; |
| **FTN 4.** Azərbaycan ərazisində arxeoloji mədəniyyətlərini öyrənilməsi metodikasını yaradıcı şəkildə müəyyənləşdirir, onların cari və perspektiv nəticələırini təhlil edir; |
| **FTN 5**. Arxeoloji əraziləri tədqiq haqqında ümumi təsvvürə malikdir, həmçinin problemlə bağlı peşəkar müzakirələrdə iştirak edir; |
| **FTN 6.** Azərbaycan tarixinin tədqiqinin arxeoloji materiallar istiqamətində metodoloji problemlərini bilir, məsələləri yaradıcı şəkildə müəyyənləşdirir və metodikasını təhlil edir; |
| **FTN 7.** Azərbaycanın arxeologiyasının tarixinin öyrənilməsi metodologiyasına dair biliklərini tədris, təlim və innovativ üsullarla başqalarına otürə bilir; |
| **FTN 8.** Azərbaycanda muzey materialarını tədqiq edir, həmçinin müstəqil təhsil üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilir; |

| |
|---|
